# Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən təlimlər





15 avqust 2023-cü il tarixdə Qəbələ rayonunda Dövlət İmtahan Mərkəzi tərəfindən “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019 - 2025-ci illər üçün Strategiya”-nın 2023 - 2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı”na əsasən “Münaqişələrin idarə edilməsi” və “Rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarəedilməsi və liderlik”, “Dövlət qulluğunda etik davranış qaydaları və korrupsiya ilə mübarizə” və “Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları”, “Dövlətin əsasları” və “Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi” mövzularında təlimlər keçirilmişdir. Təlimdə rayonda müxtəlif sahələrdə çalışan dövlət qulluqçuları iştirak etmişdir.

# Musiqisevərin arzusu



Azərbaycanın ən qədim şəhərlərindən biri olan qədim Qəbələnin mədəni, iqtisadi inkişafı məni də bir məktəbli kimi həmişə maraqlandırır. Mən öz doğma obamla, vətənimlə həmişə fəxr edirəm və qəhrəmanlıq dolu zəngin tariximizlə qürur duyuram.

Həmçinin bu tarixi öyrənmək və xalqımızın zəngin irsini, tarixini təbliğ etmək, bütün dünyada tanıtmaq mənim ən böyük arzumdur. Qədim Qəbələmizdə keçirilən musiqi festivallarında iştirak etmək, musiqi kalifeylərinin əsərlərini dinləmək, bəstəkar və müğənniləri, solistləri əyani şəkildə görmək mənim üçün çox sevindiricidir. Hər il musiqi festivalının keçiriləcəyi günləri səbirsizliklə gözləyirəm.

Musiqini çox sevirəm, həm də bütün janrları ilə. Musiqi insanın qəlbini oxşayır, insana rahatlıq, dinclik verir. Ulu öndərimiz Heydər Əliyev necə də gözəl deyib: “Musiqi ruhun qidasıdır, onu sevmək lazımdır”.

Bu yay mövsümü də yaddaşlarda XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı ilə daha maraqlı iz buraxdı. Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dəstəyi ilə baş tutan festival 27 iyuldan avqustun 2-dək keçirildi. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan bu ilki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı dünyanın bir çox ölkələrindən məşhur musiqiçilər-ifaçı və dirijorlar, bəstəkarlar, musiqi kollektivləri iştirak etmişdir.

Həmişə olduğu kimi bu ildə musiqisevərlər üçün maraqlı proqramlar tərtib edilmiş, klassik, kamera musiqisi və muğam axşamları keçirilmişdir.

Musiqi festivalının hər bir proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılanırdı. Festivalın bütün konsertlərində iştirak edirdim. Babam Cavanşir və nənəm Rima xanım, atam Vaqif Məmmədovlarla birlikdə musiqi proqramlarını böyük maraqla dinləyirdim. Axı gələcəkdə musiqiçi olmaq mənim ən böyük arzumdur və bu arzuma hörmətlə yanaşan insanlarla birgə musiqi dinləmək və musiqi karifeylərini görmək hər bir musiqisevər üçün çox önəmlidir. Məşhur, dünya şöhrətli bəstəkarlar İohannes Bramsın 190, Sergey Raxmaninovun 150, tanınmış pianinoçu Bella Davidoviçin 95, görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun 90 illiyinə həsr olunmuş konsert proqramları xüsusi ilə daha çox xoşuma gəldi, bəstəkar və professorlarımızın Bramsın taleyinə aid söylədikləri həyat hekayəsi yaddaşıma iz saldı.

Sevimli bəstəkarımız, əməkdar elm xadimi, professor Fərhad Bədəlbəylinin simfonik əsərlərini həmişə diqqətlə izləmişəm. Onunla görüşmək mənim ən böyük arzum olmuşdur. Musiqi festivalının sonuncu günü mən böyük bəstəkarımızla görüşdüm və onunla xatirə şəkili çəkdirdim. Mən təqdim etdiyim tər çiçəklər arasında ona ünvanlanmış təşəkkür məktubu yerləşdirmişdim. Məktubu üç dildə- Azərbaycan, ingilis və rus dilində yazmışdım. Məktubda deyilirdi;

“Hörmətli Fərhad müəllim! Sizə Azərbaycan musiqi sənətinin inkişafında göstərdiyiniz xidmətlərə görə, xüsusilə Qəbələ Beynəlxalq Musiqi festivalının keçirilməsində fəal iştirakınıza görə böyük müvəffəqiyyətləriniz üçün təşəkkür edirəm və sizə sağlam ömür, yaradıcılıq uğurları arzulayıram. Arzu edirəm ki siz daha böyük zirvələrə ucalasınız”.

Sevincim hədsiz-hüdudsuz idi, axı mən böyük bəstəkarla görüşmüşdüm...

Müəllimlərim adından, yaşıdlarım adından respublikamızın Prezidenti İlham Əliyevə, Mehriban xanıma, Fərhad müəllimə, rayon rəhbərliyinə belə gözəl bir musiqi festivalının Qəbələmizdə təşkilinə və yüksək səviyyədə keçirildiyinə görə minnətdarlığımızı bildirirəm.

**Nigar MƏMMƏDOVA,**
**Qəbələ şəhər 4 saylı orta məktəbin şagirdi.**

# XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının yekun konserti





Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dəstəyi ilə keçirilən XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının avqustun 2-də təntənəli bağlanış konserti keçirilib. Gözəl ənənəyə çevrilən festival bu dəfə də öz möhtəşəmliyi ilə musiqi dünyasının diqqətini Qəbələyə cəlb edə bilib. İyulun 27-də başlanan və yeddi gün davam edən musiqi bayramı ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdu. Konsertdə Azərbaycan Respublikasının Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə “Qaytağı” instrumental ansamblının və Əməkdar artist Emil Əfrasiyabın ifasında səslənən Ü. Hacıbəylinin, C. Cahangirovun, A. Pyatsollanın, V. Coşmanın kinofilmlərə bəstələdikləri musiqilərlə yanaşı, bəstəkar və xalq mahnıları, rəqsləri, eləcə də Ə. Sadıqovun və E. Əfrasiyabın öz bəstələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Beləliklə, XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı şən notlarla başa çatıb. Nüfuzu ildən-ilə artmaqda olan bu festival Azərbaycanın mədəni həyatında çox mühüm əhəmiyyətə malikdir. Klassik musiqi vurğunu olan hər bir insanın səbirsizliklə gözlədiyi Qəbələ Beynəlxalq Musiqi Festivalı həm də maarifləndirmə və yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə xidmət edir.

# Ukraynalı uşaqların Qəbələyə ekskursiyası





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək düşərgələrdə yerləşdirilən və reabilitasiya tədbirlərinə cəlb edilən müharibədən əziyyət çəkmiş ukraynalı uşaqların Qəbələyə ekskursiyası təşkil edilib. Uşaqlar ekskursiya zamanı Qəbələ rayonunun gəzməli, görməli yerləri ilə tanış olmuşlar.